**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

İş № 2(103)- /2019

" " 2019-cu il Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyası

Hakimlər Raqib Əliddin oğlu Qurbanovun sədrliyi və məruzəsi ilə, Etibar Qəzənfər oğlu Nəbiyev və Aida Əli qızı Hüseyndən ibarət tərkibdə,

məhkəmə iclas katibi Lalə Adil qızı Əbdürrəhimovanın katibliyi ilə,

iddiaçının nümayəndəsi XXXX oğlunun və cavabdehin nümayəndəsi və vəkili XXXX oğlunun iştirakı ilə,

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)- /2018 saylı mülki iş üzrə qəbul etdiyi 03 oktyabr 2018-ci il tarixli qətnaməsindən iddiaçı XXXX tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında, açıq məhkəmə iclasında baxaraq,

**m ü ə y y ə n e t d i:**

İddiaçı XXXX cavabdeh XXXX qızına qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehin Bakı şəhəri, Nəsimi rayonu, XXXX küçəsi, XX saylı evin XX saylı mənzilindən çıxarılması və mənzilin boşaldılaraq Nəsimi rayon İcra Hakimiyyətinə təhvil verilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 03 oktyabr 2018-ci il tarixli 2(006)- /2018 saylı qətnaməsi ilə iddia təmin edilməmişdir.

İddiaçı XXXX həmin qətnamədən apellyasiya şikayəti vermişdir.

Apellyasiya şikayətində işin faktiki halları göstərilmiş və əlavə olaraq qeyd olunmuşdur ki, birinci instansiya məhkəməsi maddi və prosessual hüquq normalarını pozmuş, işin hallarını tam və hərtərəfli araşdırmamışdır.

Məhkəmə iclasında iddiaçının nümayəndəsi XXXX oğlu apellyasiya şikayətini müdafiə etdi, cavabdehin nümayəndəsi və vəkili XXXXoğlu isə apellyasiya şikayətinə etiraz etdi.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayəti təmin edilməlidir.

Belə ki, iş materiallarına əsasən müəyyən olunur ki, Bakı şəhəri, Nəsimi rayonu, XXXX küçəsi, XX saylı evin XX saylı mənzili dövlət mənzil fonduna aid olmaqla Bakı şəhəri XXXX balansındadır. XXXXnin 15.12.1989-cu il tarixli XXX saylı qərarına əsasən rayon icraiyyə komitəsi Bakı şəhər soveti ilə razılaşmaya əsasən sözügedən mənzildən XXXX ailəsi ilə birlikdə qeydiyyatdan çıxarılaraq, həmin mənzilə XXXX qızının iki nəfərdən ibarət ailə üzvü ilə qeydiyyata alınması və iki nəfərdən ibarət tərkibdə (XXXX qızı və XXXX oğlu olmaqla) XXXX adına həmin mənzilinə şəxsi hesab vərəqəsinin açılması qərara alınmışdır. XXXX qızı cavabdehin anası, XXXX oğlu isə qardaşıdır. XXXX qızı 31 iyul 2014-cü il tarixdə, XXXX oğlu isə 25.12.2017-ci il tarixdə vəfat etmişlər. Hal-hazırda həmin mənzildə qeydiyyatda heç kim yoxdur və cavabdeh həmin mənzildə yaşayır. Cavabdeh Bakı şəhəri, Binəqədi rayonu, XXXX qəsəbəsi, sıra X, ev XX ünvanında yaşayış yeri üzrə qeydiyyatdadır.

İddiaçı bildirir ki, cavabdeh həmin mənzili dövlət balansına qaytarmır, ona mənzili boşaltması barədə dəfələrlə xəbərdarlıq edilsə də, o, bundan imtina edir.

Cavabdeh iddiaya etiraz edir və bildirir ki, o, anasının vəfatından sonra həmin mənzildə yaşayır və bu gün o, mənzilin yeganə sahibidir. Onun həmin mənzilə hüququ vardır.

Məhkəmə kollegiyası hesab edir ki, iddia əsaslıdır.

Belə ki, iddia tələblərinin qanuni əsasını Mülki Məcəllənin 157.2-ci maddəsi təşkil edir. Həmin maddənin tələblərinə görə mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edə bilər. Qeyd olunan maddənin dispozitiv şərtlərinə görə iddia irəli sürmüş şəxs (iddiaçı) mübahisəli əmlakın mülkiyyətçisi olmalı, həmin əmlak iddia irəli sürülmüş şəxsin (cavabdehin) sahibliyində olmalı və həmin sahiblik qanunsuz olmalıdır. Yalnız həmin şərtlərin mövcudluğu halında bu növ iddialar təmin edilə bilər.

Hazırkı işdə də bu şərtlərin mövcudluğu təsdiq olunur.

Belə ki, mübahisəli mənzilin iddiaçının mülkiyyətində olması və cavabdehin sahibliyinə olması işin mübahisəsiz hallarıdır.

Cavabdehin həmin mənzil üzərində sahibliyi isə qanunsuzdur.

Çünki onun həmin mənzilə dair hər hansı bir hüququnun mövcud olması müəyyən olunmur.

Belə ki, cavabdeh anasının vəfatından sonra həmin mənzildə yaşadığını bildirsə də, bununla bağlı mötəbər sübutları təqdim etməmiş və Mülki Prosessual Məcəllənin 77.1-ci maddəsi ilə üzərinə düşən sübut etmə vəzifəsini yerinə yetirə bilməmişdir.

Cavabdehin təqdim etdiyi XXXX, XXXXvə XXXXun adından yazılmış ərizə isə bu halı təsdiq edən sübut kimi qəbul edilə bilməz.

Belə ki, həmin ərizədə göstərilən şəxslər çəkişmə prinsipinə riayət edilməklə məhkəmə iclasında şahid qismində dindirilməmişlər.

Bundan başqa iş materiallarında olan XXXXnin 25 avqust 1989-cu il tarixli XXXX saylı qərarından çıxarışın, XXXXnın 10 may 2002-ci il tarixli XXX saylı sərəncamından çıxarışın, Bakı şəhər İcra Hakimiyyəti Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən tərtib olunmuş 29 may 2002-ci il tarixli fərdi yaşayış fonduna daxil olan yaşayış evinin texniki pasportunun, Binəqədi rayon İcra Hakimiyyəti Başçısının XXXXXX qəsəbə üzrə nümayəndəsi tərəfindən verilmiş 20.05.2002-ci il tarixli XXXX saylı XX saylı forma arayışının və cavabdehlə onun ailə üzvlərinin adlarından yazılmış 27.02.2002-ci il tarixli ərizələrin surətlərindən müəyyən olunur ki, 1989-cu ildə Ermənistan respublikasından qaçqın düşmüş cavabdeh və onun əri XXXXin Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.XXXX qəsəbəsi (keçmiş XXXX), sıra X, ev XX ünvanına yaşayış yeri üzrə qeydiyyata alınmasına icazə verilmiş, 1990-cı ildə cavabdeh, 1994-cü ildə isə onun əri, qayınatası və qayınanası həmin ünvana qeydiyyata alınmışlar, 2002-ci ildə həmin evə dair texniki pasportu tərtib olunub, evin ümumi sahəsi 68,5 kv.m təşkil edir, həmin ildə XXXXnın sərəncamı ilə həmin evə qeydiyyat vəsiqəsinin verilməsinə razılıq verilmiş, həm cavabdeh, həm də evdə qeydiyyatda olan şəxslər həmin evin cavabdehin adına qeydiyyata alınmasına razılıq vermişlər.

Göründüyü kimi qeyd olunan sübutlarla təsdiq olunur ki, cavabdeh öz ailəsi ilə birlikdə digər evdə yaşayır.

Belə olan halda isə onun mərhum anası və qardaşı ilə birgə yaşayıb, onlarla ümumi təsərrüfat aparması və bununla da, 01.10.2009-cu il tarixədək qüvvədə olan Mənzil Məcəlləsinin 54 və 85-ci maddələrinə əsasən mübahisəli mənzilə istifadə hüququnun və özünün icarədar hesab edilməsini tələb etmək hüququnun əldə etməsi qeyri-mümkündür.

Bu baxımdan kollegiya hesab edir ki, iddia tam əsaslıdır.

Beləliklə, məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, apellyasiya şikayəti təmin edilməli, Mülki Prosessual Məcəllənin 385.1.1 və 385.1.4-cü maddələrində göstərilən əsaslara görə birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilməli və yuxarıda göstərilən əsaslara görə iddia təmin edilməlidir.

Göstərilənlərə əsasən və Mülki Prosessual Məcəllənin 384.0.2, 392, 393, 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**q ə t e t d i:**

İddiaçı XXXX tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilsin.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)- /2018 saylı mülki iş üzrə qəbul etdiyi 03 oktyabr 2018-ci il tarixli qətnaməsi ləğv edilsin.

İddia təmin edilsin.

Cavabdeh XXXX qızı Bakı şəhəri, Nəsimi rayonu, XXXX küçəsi, XX saylı evin XX saylı mənzilindən çıxarılsın və mənzil boşaldılaraq Nəsimi rayon İcra Hakimiyyətinə təhvil verilsin.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

Sədrlik edən: imza

Hakimlər: imzalar

Əsli ilə düzdür:

Hakim Raqib Qurbanov